# Qazax teatrı paytaxt tamaşaçılarını “inandırdı”

**Mədəniyyət Nazirliyi və Teatr Xadimləri İttifaqının “Qonaq teatr” layihəsi çərçivəsində Ulu öndərin 100 illik yubileyi və Qazax Dövlət Dram Teatrının 85 illiyi münasibətilə yazıçı-dramaturq, rejissor, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlunun “İnan mənə” tamaşasının paytaxtda təqdimatı uğurla keçib.**



Teatr Xadimləri İttifaqının böyük zalında göstərilən tamaşadan öncə İttifaq Sədrinin vəzifə səlahiyyətlərini icra edən Xalq artisti, “Şöhrət” ordenli, Dövlət mükafatı laureatı Hacı İsmayılov tamaşaçıları salamlayıb. O, İttifaqın “Qonaq teatr” layihəsinin əhəmiyyətini qeyd edib və səhnəni Qazax Dövlət Dram Teatrının aktyorlarının ixtiyarına verib.

Əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru Xəzər Gəncəlinin quruluşunda, yüksək peşəkarlıqla hazırlanmış, “İnan mənə” tamaşa elə ilk dəqiqələrdən maraq doğurub. İstedadlı aktyorlar – Yusif Qoca (Elçin), Zəmanə Dərviş (Aysel), Minayə İbrahimova (Yasəmən), Elşad Əliyev (Vüqar), Aydın Orucov (Professor Əmirov), Əhməd Musayev (Emin), kütləvi səhnələrdə oynayan Məmməd Hacıəliyev, Xəqan Qurbanov, Nizami Aşbazov, Turac Məmmədova əsərin başlıca ideyasını məharətlə tamaşaçılara çatdıra biliblər.

Ötən əsrin 80-ci illərinin sonlarından bəhs edən səhnə əsərində hadisələr özbaşınalıq və hərc-mərcliyin önə çıxdığı xaotik bir durumda Elçin Poladlı kimi dürüst, prinsipial və əqidəsinə sadiq qalan ziyalıların mübarizəsi fonunda baş verir. Polad bir iradəyə malik olan Elçin Poladlı gələcəyə nikbin baxır və öz həmməsləkləri ilə birlikdə mənfiliklərə qalib gəlir.

Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan, peşəkar səviyyəli tamaşa teatr mütəxəssisləri, sənətsevərlər və media nümayəndələri tərəfindən alqışlarla qarşılanıb.

Sonda Qazax Dövlət Dram Teatrı Milli Teatr sənətinin inkişafındakı xidmətlərinə görə və 85 illiyi münasiəbəti ilə, Xəzər Gəncəli “İnan mənə” tamaşasına verdiyi uğurlu quruluşa görə, Ağalar İdrisoğlu ölkə teatrları ilə uğurlu əməkdaşlığa görə, 60 yaşı tamam olan aktyor Aydın Orucov isə yaxşı oyununa görə Azərbaycan Teatr Xadimləri İttifaqının fəxri fərmanları ilə təltif olunublar. Qazax Dövlət Dram Teatrının baş rejissoru, Əməkdar artist Musa Eyyubov, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlu, Əməkdar artist Xəzər Gəncəli və aktyor Aydın Orucov onları ruhlandıran Teatr Xadimləri İttifaqına və tamaşaçılara minnətdarlıqlarını bildiriblər.

***Aida QAFAROVA,***
***Azərbaycan Teatr Xadimləri İttifaqının məsul katibi***

Xalq qəzeti .- 2023.- 29 sentyabr.- S.10.